 QANUN № 01 (375), 2026, s. 191-196

**Mürşüdlü Murad Cavid oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin II kurs magistrantı
E-mail: muradmursudli@gmail.com

**UOT 343.22**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4086**

# HƏRBİ XİDMƏT ƏLEYHİNƏ CİNAYƏTLƏRİN SUBYEKTLƏRİNİN HÜQUQİ STATUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNDƏ "XÜSUSİ SUBYEKT" ANLAYIŞININ ROLU VƏ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *hərbi xidmət, hərbi cinayətlər, hüquqi status, xüsusi subyekt.*

***Ключевые слова:*** *военная служба, военные преступления, правовой статус, специальный субъект.*

***Keywords:*** *military service, military offences, legal status, special subject.*

Cinayət hüququ nəzəriyyəsinə və Cinayət Məcəlləsinin 19-cu maddəsinə əsasən, cinayətin subyekti anlaqlı və müəyyən edilmiş yaş həddinə çatmış fiziki şəxsdir [1]. Lakin bir sıra cinayət tərkibləri var ki, onların törədilməsi üçün sadəcə ümumi subyekt olmaq kifayət etmir. Hərbi xidmət əleyhinə olan cinayətlər bu cinayət tərkibləri sırasına daxildir. Bu hallarda cinayətin subyekti yalnız xüsusi hüquqi statusa malik şəxs ola bilər. Cinayət-hüquq doktrinasında bu cür şəxslər "xüsusi subyekt" adlandırılır.

Hərbi xidmət əleyhinə cinayətlər dövlətin müdafiə potensialını, hərbi nizam-intizamın sabitliyini və hərbi qulluq vəzifələrinin icrasının fasiləsizliyini təmin edən hüquqi münasibətlərə yönəlmiş ictimai təhlükəli əməllərdir. Bu cinayətlərin tərkibinin düzgün müəyyənləşdirilməsi, xüsusilə də subyektin hüquqi statusunun dəqiqləşdirilməsi cinayət hüququ və cinayət-prosessual hüquq baxımından fundamental əhəmiyyət kəsb edir.

Xüsusi subyekt anlayışı hərbi xidmət əleyhinə cinayətlərin hüquqi təhlilində əsas kateqoriyalardan biri kimi çıxış edir. F.Y.Səməndərov qeyd etmişdir ki, xüsusi subyekt əlaməti cinayətkarın şəxsiyyətini müxtəlif cəhətdən, yəni işdəki və ya xidmətdəki qulluq mövqeyini, vəzifəni, peşəni, hərbi vəzifələri, ailə vəziyyətini və s. xarakterizə edir [5]. Bu anlayış cinayətin kim tərəfindən törədilə biləcəyini hüquqi cəhətdən dəqiq müəyyənləşdirir və cinayət məsuliyyətinin tətbiqində sərhədləri müəyyən edir. Hərbi qulluqçu statusu qanunla xüsusi şəkildə tənzimləndiyi üçün, həmin statusun mövcud olub-olmaması cinayət tərkibinin yaranması üçün əsas əlamətlərdən hesab olunur. Eyni zamanda, xüsusi subyekt yalnız formal status deyil, konkret hüquqi öhdəliklər və nizam-intizam çərçivəsində

fəaliyyət göstərən şəxsi ifadə etdiyindən, cinayət tərkibinin obyektiv və subyektiv cəhətlərinin müəyyən edilməsində də mühüm rol oynayır.

Bu mövzunun aktuallığı eləcə də ondan irəli gəlir ki, təcrübədə bəzən şəxsin hərbi qulluqçu olub-olmaması, yaxud həmin statusun cinayətin törədildiyi anda qüvvədə olub-olmaması ilə bağlı mübahisəli hallar meydana çıxır. Belə hallarda məsuliyyətin hədləri və hətta cinayət işinin başlanmasının qanuniliyinin qiymətləndirilməsi bilavasitə subyektin statusunun dəqiq müəyyənləşdirilməsindən asılı olur. Buna görə də hərbi xidmət əleyhinə cinayətlərin öyrənilməsində, xüsusilə onların subyektinin hüquqi statusunun təhlilində xüsusi subyekt anlayışının rolu həm nəzəri, həm də praktiki baxımdan böyük əhəmiyyət kəsb edir.

Hərbi xidmət əleyhinə cinayətlərin anlayışı Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Cinayət Məcəlləsinin 327-ci maddəsində normativ təsbitini tapmışdır. Həmin maddədə nəzərdə tutulmuşdur ki, çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində, digər qoşun və hərbi birləşmələrdə hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn və bu fəsildə nəzərdə tutulmuş əməlləri hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur. Maddənin məzmunundan da aydın olduğu kimi, Azərbaycan Respublikası qanunvericiliyi hərbi qulluqçu statusuna malik şəxslərdən əlavə, hərbi vəzifəlilərin də hərbi xidmət əleyhinə cinayət məsuliyyətinə cəlb olunması hallarını müəyyən etmişdir.

Hərbi xidmət əleyhinə cinayətlərdə xüsusi subyekt anlayışının rolunu düzgün qiymətləndirmək üçün ilk növbədə "hərbi xidmət" anlayışının hüquqi tərifinin müəyyən olunması vacibdir. Qanunvericilik bu anlayışı kifayət qədər dəqiq müəyyən edir və hərbi xidmətin dövlət qulluğunun xüsusi növü kimi xarakterini ön plana çəkir. Azərbaycan Respublikasının 23 dekabr 2011-ci il tarixli "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanununa əsasən, hərbi xidmət – Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş digər dövlət orqanlarında qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətlərdə vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin həyata keçirdikləri xidməti fəaliyyətdir [2]. Hərbi xidmətin həyata keçirilməsi zamanı həmin şəxslər "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin tələblərinə, eləcə də digər müvafiq normativ hüquqi aktların müddəalarına əməl etməyə borcludurlar. Bu tənzimləmə yalnız xidmət prosesinin təşkilati-hüquqi çərçivəsini müəyyən etmir, həm də hərbi qulluqçunun hüquqi statusunu formalaşdırır ki, bu status son nəticədə xüsusi subyekt anlayışının tətbiq dairəsini və cinayət tərkibinin maddi elementlərinin qiymətləndirilməsini müəyyən edən əsas amillərdən birinə çevrilir.

Bununla belə qeyd olunmalıdır ki, hərbi xidmətin hüquqi təbiəti onun məhz normativ çərçivə ilə məhdudlaşmadığını, eyni zamanda xüsusi nizam-intizam və tabelik münasibətlərinə əsaslanan institusional bir fəaliyyət sahəsi olduğunu göstərir. Bu sahədə hərbi qulluqçunun statusu yalnız vəzifə və rütbə ilə deyil, həm də dövlət qarşısında daşıdığı xüsusi öhdəliklərin məcmusu ilə ölçülür. Məhz bu öhdəliklərin məzmunu hərbi xidmət əleyhinə cinayətlər üzrə subyekt dairəsinin məhdudlaşdırılma səbəbini izah edir. Əmri icra etməmə, rəisə qarşı zorakı hərəkətlər və digər hərbi xidmət əleyhinə olan cinayət əməlləri yalnız həmin xüsusi öhdəliklərin daşıyıcısı olan şəxslər tərəfindən törədilə bilər. Burada diqqətə alınmalı əsas məsələ budur ki, xüsusi subyekt statusu cinayət tərkibinin formalaşması üçün əvvəlcədən mövcud olan hüquqi şərtdir və bu

şərtin mövcud olmaması cinayət tərkibinin yaranmasını istisna edir.

Hərbi xidmət əleyhinə cinayətə görə məsuliyyətə cəlb edilə bilən subyektlərin minimum yaş həddinin müəyyən olunması da zəruridir. Belə ki, yuxarıda göstərilən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 6-cı bəndinə əsasən, kursantlara hərbi təhsil müəssisələrində təhsil alan hərbi qulluqçular da aiddir. Azərbaycan Respublikasında hazırda hərbi təhsil müəssisələri sırasından Cəmşid Naxçıvanski adına Hərbi Lisey 15 yaşı tamam olmuş və 17 yaşına çatmamış Azərbaycan Respublikası vətəndaşlarının təhsil müəssisəsinə qəbulunu həyata keçirir. Bu isə onu göstərir ki, hərbi xidmət əleyhinə cinayətlərin subyektləri 15 yaşı tamam olmuş şəxslər də ola bilər.

Azərbaycan Respublikasının "Hərbi qulluqçuların statusu haqqında" 25 dekabr 1991-ci il tarixli Qanunun 4-cü maddəsinin 2-ci bəndinə əsasən, hərbi qulluqçular hərbi xidmət vəzifələrini faktiki yerinə yetirdikləri bütün hallarda, o cümlədən döyüş əməliyyatlarında iştirak edərkən, təlimlərdə, döyüş növbəsində (döyüş xidmətində), gündəlik və qarnizon növbələrində, toplanışlarda, ezamiyyətlərdə olarkən, xidmət yerinə gedib-gələrkən və başqa hallarda hərbi xidmət başında sayılırlar.

Mühüm məsələ ondan ibarətdir ki, hərbi xidmətə çağırışın qanuniliyinin təmin edilməsi bir şəxsin hərbi xidmət əleyhinə cinayətlərin subyekti kimi tanınması üçün əsas şərtlərdən biridir. Çağırış prosedurunun qanunvericiliklə müəyyən edilmiş ardıcıllıqla həyata keçirilməsi, habelə şəxsin çağırışdan azadolma, təxirə salınma və ya hərbi xidmətə yararlılığa təsir edən digər hüquqi hallara malik olub-olmamasının düzgün qiymətləndirilməsi bu statusun müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Çağırışda yol verilmiş prosessual pozuntular isə həmin şəxsin hərbi xidmətə hüquqi cəhətdən uyğun şəkildə qəbul olunub-olunmaması barədə şübhələr doğurur və nəticə etibarilə, onun Hərbi xidmət əleyhinə cinayətlərə görə məsuliyyət daşımasının mümkünlüyünü mübahisələndirir.

Hüquq elmi ədəbiyyatında subyektin əlamətlərinin müəyyənləşdirilməsi ilə bağlı vahid yanaşmanın mövcud olmaması bu məsələni daha da aktual edir. Bir tərəfdən, hərbi qulluqçu statusunun qanunsuz verilməsinin cinayət məsuliyyətini istisna etdiyi irəli sürülür; digər tərəfdən, faktiki olaraq xidmət edən şəxsin həmin statusdan irəli gələn hüquq və vəzifələri real olaraq həyata keçirdiyi vurğulanır. Bu səbəbdən hərbi xidmətin başlanma və bitmə anının dəqiq müəyyən edilməsi vacibdir ki, şəxsin davranışının hansı mərhələdə, yəni xidmətə faktiki başlamazdan əvvəl və ya xidməti başa vurduqdan sonra cinayət tərkibinin əlamətlərini daşıdığı hüquqi cəhətdən düzgün qiymətləndirilə bilsin [7].

Məhəmməd İmanlının fikrincə, hərbi qulluqçu cinayətin törədildiyi anda xidməti vəzifələrini yerinə yetirib-yetirməməsindən, yaxud həmin vəzifələri müvəqqəti olaraq icra etməməsindən asılı olmayaraq, hərbi xidmət əleyhinə olan cinayətin subyekti hesab olunur [6]. Lakin qeyd etməliyik ki, hərbi xidmət əleyhinə bəzi cinayətlərdə şəxsin xidməti vəzifələrini icra etdiyi anda qanunvericiliklə müəyyən edilmiş nizamnamə qaydalarını pozması cinayət tərkibinin yaranması üçün zəruridir. Bu da hərbi xidmət əleyhinə cinayətlərin bir hissəsində faktiki olaraq hərbi qulluqçunun vəzifələrini yerinə yetirib-yetirməməsindən asılı olduğunu göstərir. Belə cinayətlərə Cinayət Məcəlləsinin 336-cı, 337-ci və digər maddələrini misal göstərmək olar.

Həmçinin qeyd olunmalıdır ki, hərbi xidmət əleyhinə cinayətlər üzrə subyektin müəyyənedici xüsusiyyətləri, bir qayda olaraq, həmin cinayətlərin bilavasitə obyektindən, yəni hərbi xidmət prosesində mövcud olan tabelik, nizam-intizam və xidmət qaydalarından irəli gəlir. Hərbi xidmət əleyhinə cinayətlərin növ obyektinə görə

qruplaşdırılması subyektin əlamətlərinə də öz təsirini göstərir. Məsələn, tabelik qaydasına qarşı yönəlmiş cinayətlərdə subyektin müəyyən olunması çətinlik yaratmır, çünki əsas meyar hərbi qulluqçu ilə onun birbaşa və bilavasitə rəisi arasında mövcud olan tabelik münasibətləridir.

Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 saylı Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində rəis anlayışı, kimlər olduğu müəyyən edilsə də, bəzən hüquqi qiymətləndirmə zamanı vəzifəcə yüksək olsa da, formal olaraq birbaşa rəis hesab edilməyən şəxsin əmrinin icrası məsələsində müəyyən çətinliklər yarana bilər [3]. Belə vəziyyətlərdə hərbi qulluqçu əmrin hüquqi qüvvəsi və icra olunmasının zəruriliyi barədə yanılmalara yol verə, nəticədə öz davranışının qiymətləndirilməsində qeyri-müəyyənlik yarana bilər [8].

Hərbi xidmətlə bağlı münasibətlərdə rəis statusu yalnız tutulan vəzifədən deyil, həm də daha yüksək hərbi rütbə daşımaqdan irəli gələ bilər. Bu hal hərbi qulluqçular arasındakı münasibətlərin və tabelik mexanizmlərinin düzgün anlaşılması baxımından əhəmiyyətlidir. Bu xüsusiyyət nəzərə alınmadıqda, hərbi xidmət əleyhinə cinayətlərin hüquqi tövsifində yanlış nəticələr ortaya çıxa bilər. Buna görə də subyektin müəyyən edilməsi zamanı həm vəzifə üzrə, həm də rütbə üzrə üstünlük meyarları birlikdə nəzərə alınmalıdır [9]

Cinayət tərkibinin subyektiv cəhətinin müəyyən olunması, xüsusilə də niyyətin və motivin qiymətləndirilməsi zamanı xüsusi subyekt anlayışı mühüm əhəmiyyət kəsb edir. Hərbi qulluqçunun xidmətlə bağlı hərəkət və qərarları adi vətəndaşın gündəlik davranışından kəskin fərqlənir, çünki bu şəxslər tabelik münasibətləri, əmrlər və hərbi intizamın tələb etdiyi xüsusi məsuliyyət çərçivəsində fəaliyyət göstərirlər. Buna görə də hərbi xidmət əleyhinə cinayətlərdə subyektiv cəhət çox vaxt xidmət öhdəliklərindən yayınma, intizamsızlıq göstərmə və ya tabelik münasibətlərini qəsdən pozma kimi motivlərlə xarakterizə olunur. Bu motivlər yalnız xüsusi subyekt olan şəxslərə aid ola bilər, çünki həmin davranışların özünəməxsus məzmunu onların daşıdığı statusla birbaşa bağlıdır və bu status olmadan həmin motivlərin hüquqi qiyməti də dəyişir.

Nəticə etibarilə, hərbi xidmət əleyhinə cinayətlərdə "xüsusi subyekt" anlayışının müəyyən edilməsi təkcə cinayət tərkibinin hüquqi sərhədlərini dəqiqləşdirmir, həm də hərbi qulluqçular üçün tətbiq olunan xüsusi hüquqi rejimin mahiyyətini açır. Bu kateqoriya cinayət məsuliyyətinin subyekt dairəsini qanunvericiliyin məqsədlərinə uyğun şəkildə məhdudlaşdırmaqla yanaşı, hüquqi müəyyənlik, hüquqi sabitlik və proqnozlaşdırıla bilən məhkəmə praktikasının formalaşmasına xidmət edir. "Xüsusi subyekt" institutunun düzgün tətbiqi cinayət hüququnun sistemliliyinin və hərbi xidmət münasibətlərinin hüquqi tənziminin effektivliyinin vacib şərti hesab edilməlidir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir: [Elektron resurs] /URL: https://www.e-qanun.az/framework/46947

2. Azərbaycan Respublikasının "Hərbi vəzifə və hərbi xidmət haqqında" 23 dekabr 2011-ci il tarixli Qanunu: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/23021

3. Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/9476

4. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/4645

5. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. – Bakı: Digesta, – 2007. – 697 s.

6. İmanlı M.N. Cinayət hüququ. Xüsusi hissə. Təcrübi materiallar toplusu ilə birgə. – Bakı: «Zərdabi» nəşriyyatı, – 2009. – 655 s.

7. Данилов П.С. Субъект преступлений против военной службы / П.С. Данилов // Вестник Омского университета. Серия: Право. – 2017. – 190-192 с.

8. Петухов Н.А., Чукин Д.С. Некоторые аспекты криминологической характеристики насильственных преступлений против личности, совершаемых военнослужащими // Вестник Санкт-Петербургского университета МВД России, – 2017. – 152-157 с.

9. Тер-Акопов А.А. Преступление и проблемы нефизической причинности в уголовном праве. – М., – 2023. – 478 с.

**Муршудлу Мурад Джавид оглу,**
магистрант II курса юридического факультета
Бакинского государственного университета

## РОЛЬ И ЗНАЧЕНИЕ ПОНЯТИЯ «СПЕЦИАЛЬНЫЙ СУБЪЕКТ» В ОПРЕДЕЛЕНИИ ПРАВОВОГО СТАТУСА СУБЪЕКТОВ ПРЕСТУПЛЕНИЙ ПРОТИВ ВОЕННОЙ СЛУЖБЫ

### РЕЗЮМЕ

В уголовном праве преступления против военной службы характеризуются как общественно опасные деяния, нарушающие специальные правовые отношения, включая отношения подчинённости, воинскую дисциплину и установленный порядок прохождения военной службы. В юридическом анализе данных преступлений вопрос субъекта имеет существенное значение, поскольку такие деяния могут быть совершены исключительно лицами, обладающими специальным правовым статусом. В статье исследуются роль и значение понятия «специальный субъект» в определении правового статуса субъектов преступлений против военной службы. На основе соответствующих норм Уголовного кодекса Азербайджанской Республики, Закона «О воинской обязанности и военной службе» и иных нормативных правовых актов анализируются формирование статуса военнослужащего, влияние данного статуса на уголовную ответственность, а также формальные и фактические признаки субъекта. В статье в сравнительном аспекте оцениваются доктринальные подходы и правоприменительная практика, обосновывается, что институт специального субъекта имеет решающее значение для правильного определения состава преступления против военной службы.

**Murshudlu Murad Cavid,**
2nd year master's student, Faculty of Law, Baku State University

## THE ROLE AND SIGNIFICANCE OF THE CONCEPT OF THE 'SPECIAL SUBJECT' IN DETERMINING THE LEGAL STATUS OF THE PERPETRATORS OF OFFENCES AGAINST MILITARY SERVICE

### SUMMARY

In criminal law, offences against military service are characterised as socially dangerous acts that violate specific legal relations, including subordination, military discipline, and the established rules of military service. The issue of the subject is of fundamental importance in the legal analysis of these offences, since such acts may be committed only

by persons possessing a special legal status. The article examines the role and significance of the concept of the "special subject" in determining the legal status of the subjects of offences against military service.

On the basis of the relevant provisions of the Criminal Code of the Republic of Azerbaijan, the Law "On Military Duty and Military Service," and other normative legal acts, the author analyzes the formation of the legal status of a serviceman, the impact of this status on criminal liability, as well as the formal and factual characteristics of the subject. The article comparatively assesses doctrinal approaches and law-enforcement practice, substantiating that the institution of the special subject is of decisive importance for the correct determination of the corpus delicti in offences against military service.

**Redaksiyaya daxilolma tarixi: 11.12.2025**
**Təkrar işlənməyə göndərilmə tarixi: 15.01.2026**
**Çapa qəbul olunma tarixi: 16.01.2026**